# TÜRKAY

aylıq ədəbiyyat dərgisi



1/11/2023

## BU SAYIMIZDA

Həvva Nazim / Ola bilməz / 3
Rana İslam Değirmenci / Gün Doğmadan Ay Balam -2- / 4
Şahnaz Şahin / Tökülür / 6
Sündüs Arslan / Ey Masal Yorgunu / 7
Arzu Hüseyn / İndi Həsrətinlə Nəfəs-Nəfəsəm / 8
Təranə Arifqızı / Haqqını Halal Et Şəhidim / 9
Minirə Dadaşova / Mən Turan Sevdalıyam / 10
Şerife Sönmez / Kelebek İle Yağmur / 11
Lütviyyə Əsgərzadə / Mərziyyə Nəcəfova ilə Söyləşi / 12
Şəbnəm Tohidi / Darıxan Qadın! / 15
Meryem Küçük / Son Veda / 16
Dilarə Adilgil / KeyQubad, Bərgüşad Mahalı və Bugünün Qubadlısı / 17
Səidə Əliyeva / Qəm İzi Var Gözlərində / 20
Sərvanə Dağtumas / Qızıma "Nəsihətamiz" Məktub / 21
Sahibə Yüsif / Xəyalın Gücü / 22
Nazira Boymurodova / Benimle Söyle / 23
Mətanət Hüseynxanqızı / Çal Qopuzu / 24

**TÜRKAY**
**aylıq ədəbiyyat dərgisi**
**Baş redaktor** Lütviyyə Əsgərzadə
**Məsul katib** Tayyib Atmaca **Sosial yayına məsul** Sona İntizar
**Üz qabığı rəsmi** Ülviyyə Həmzəyeva
**E mail** turkayedebiyat@gmail.com
**Say 11 Noyabr 2023**

## Həvva Nazim

# Ola bilməz

Ha töküb çınqılı qalaq eyləsən,
Məğrur, əzəmətli dağ ola bilməz.
Sındırıb o kəsi hədyan söyləsən,
Qan ağlar ürəyi, sağ ola bilməz.

Deməyin məhəbbət quru ad imiş,
Sızlayan könülə sevinc yad imiş.
Uşaqlıq damaqda şirin dad imiş,
Ondan gözəl əyyam, çağ ola bilməz.

Böyüdür arzular, qocaldır istək,
Tumarla başların, oxşa, sığal çək.
Söyüdlər gözəldir həyalı qıztək,
Amma bar-bəhrəli bağ ola bilməz.

Rana İslam Değirmenci

## Gün Doğmadan Ay Balam -2-

Şîve Naz, eline batan iğnenin acısı daha taze iken ufuktan gözünü ayırmadan hep aynı renkleri düşünüyordu:

"Ah, canım annem!..", "Ah, Doğan ah!.."

O, bu düşünceler içindeyken farkına varmamıştı ama sabah olmak üzereydi.

Aynı anlarda Selamlıkta, seherin serinliğinin yüzüne çarpmasıyla kalkmaya yıllar yılı alışkın olan Ferhad Bey uykusundan uyandı. Son zamanlarda hep aynı rüyayı görüyordu. Rüyayı işte böyle, seherde uyanmasına birkaç saniye kala görüyor; uykusunun son deminde bir şeyler sayıklıyor; sayıklamasıyla kan ter içinde yataktan kalkması bir oluyordu.

O seher de sayıklayarak uyandı Bey. Hemencecik pencereye koşup arka bahçede gençlere diktirdiği ama hâlâ üzerinde bir karış ot bile bitmeyen yeni fidanlığa baktı. Yoksa gençler tohumları ekmeyi becerememiş miydi? Yoksa tohumlar, bir avuç suya hasret miydi daha?

"Ah, Doğan Oğlum! Başka yapacak bir şeyim yoktu…" diyebildi güçlükle. Zaten, Doğan gittiğinden beri her sabah gözünü açtığında ağzından dökülen ilk ve tek gerçek söz, bu oluyordu Ferhad'ın.

Haçova'da omuz omuza küffara karşı yiğitçe çarpıştığı kan kardeşi, gazâ arkadaşı Salih Bey'in yâdigârıydı ona Doğan! Muharebeyi tam kaybedecekken düşmana galebe çalmalarında her iki yiğidin de gösterdiği o olağanüstü kahramanlık, yıllarca dillere destan olmuştu. Muharebeyi kazandıkları o son şafakta Salih Bey şehit olurken Ferhad Bey'e bu Tımar hediye edilmişti. Ama yiğit Ferhad, aldığı her nefeste tımarın bir sahibinin de Salih olduğunu asla unutmadı. Ferhad Bey, topraklarına koşmadan evvel, can arkadaşı Salih'in köyüne koştu. Salih'in annesinin elini öptü. Doğan'ın ağzı dualı babaannesi, ganî yürekli Ferhad Bey'in daha ağzını açmasına fırsat vermeden Doğan'ı Ferhad'a teslim ederken:

"Seni bekliyordum yiğit oğlum! Salih'imi şehit verdim de, sana da emanetimi teslim ettim ya, gayri gözüm arkada kalmaz!" dedi ve yaşlı kadın daha oracıkta son nefesini verdi.

Evet! Doğan, Ferhad'ın kendi gibi alp olan arkadaşı, can yoldaşı Salih'in oğluydu. Can arkadaşından Bey'e yâdigârdı Doğan. İki yiğit arkadaş, yıllarca birlikte sefere her çıktıklarında "hangimiz sağ kalırsak ailemiz, evladımız ona emanet" diyerek helalleşirlerdi. İşte Haçova, bu görevi Ferhad'a vermişti. Üstelik, bu toprakların bir sahibi de Doğandı; bunu Bey, yüreğinden duyuyordu.

Doğan, annesini üç yaşındayken kaybetmişti. Hiç doğru düzgün göremediği babasını da yitirip de Ferhad Bey'in ocağına geldiğinde, henüz yedi yaşındaydı. O kadar mutlu olmuştu ki Ay Sema, bu oğlancağızın gelişine… Allah, o çok sevdiği kocasına bir oğlan çocuğu armağan etmişti işte. Onun için Doğan'ın eve gelmesi çok sevindirdi genç kadını. Onu öz oğlundan öte sevdi kadın. Çünkü Doğan evine bereket, eşine mutluluk getirmişti. Eşinin mutluluğunu gözlerinden okuyordu, bu hassas kadın. Bir yıl sonra Şîve Naz doğdu. Ay Sema kızını ancak bir saat, oğlu gibi bağrına bastığını ise sadece "dönen tek bir dört mevsim" görebildi…

Evde Ferhad Bey, Zülâl Kalfa, Doğan ve Şîve Naz kaldılar. Ferhad Bey, bir daha hiç evlenmedi. Bütün hayatını aşkından ve dâvâ arkadaşından ona yâdigâr kalan iki kıymetli hazineyi özenli ve kusursuz yetiştirmeye adadı. Yıllar su gibi akıp geçti; kızı yedi yaşına geldiğinde, aralarında sekiz yaş bulunan kız ile oğlan aynı dersleri almaya başladılar. Her ikisi de hayatla ilgili öğrendikleri her konuyu çabuk kavrıyorlar; bildiklerini büyük bir titizlik ve maharetle hayata tatbik ediyorlardı. Şîve Naz, takıldığı en küçük "an"da, yanı başında Doğan'ı buluyordu, renkleri öğrenirken…

Belli bir zaman sonra her iki genç de hayatın her renginde söz sahibi olmaya başladılar: Usta birer binici, usta birer güvercin terbiyecisi, usta birer ok atıcısı, usta birer şair, çiçek yetiştirici, neyzen, hânende, gazelhân…

Yıllara dur durak yoktu. Kız, on altı yaşına geldiğinde, evi serinleten bir bulut çöktü renklere… Gün çattı, Zülâl Kalfa Şîve Naz'ın yanına gelip "onun artık büyüdüğünü ve Selamlık'a her istediğinde destursuz giremeyeceğini" söyledi. Nazlı kızın bu gerçeği kabullenmesi hayli güç oldu… Yine de onun güzel yüreği ne Kalfa Ana'sını ne de babasını kıramazdı. Artık Doğan'la birlikte kısıtlı saatlerde vakit geçiriyorlardı.

Zaman zaman, evin babası onları yanına çağırınca; ney üflerken, sülûs yazıyla kendi eserleri olan gazelleri yazarken, murabbalar, mesnevîler okurken, sûzidîl makamında şarkılar terennüm ederken bir araya geliyorlardı ama… Ama eskisi gibi değildi hiçbir şey…

Bir gün! Cumbalı Hayat'ta, kız sedirde kendine ait yerinde otururken Selamlık'ın kapısı açıktı: Doğan, babası ile beraber ya bir şeyler konuşuyordu ya da bir şeyler yazıyordu. Nazlı kız, kafasını nakıştan kaldırır kaldırmaz; o anda gözleri Doğan'ın gözlerine değdi. İçi doğduğundan o ana kadar hiç hissetmediği bir ılıklıkla doldu kızın. Kendi kendine kızardı, terledi. O kendisi ile uğraşırken Doğan'ın elindeki hokkanın düştüğünü göremedi, pembe kız. Ferhad Bey, o anın pembeliğinden habersiz Doğan'a name yazdırıyordu. Doğan da işte o günden sonra Şîve Naz'dan kaçar olmuştu…

…

Şîve Naz, iğne batmış parmağıyla renkleri işleyemeyeceğini anlayınca nakışı bir kenara bıraktı, pencereyi sonuna kadar açtı. Bu sefer, tüm dikkatiyle lale soğanlarına baktı. Ne zaman gözünü açsa toprak sulanmış görünüyordu ama… Ama hayır! Bu tohumlar büyümüyordu!

Aklına yine Doğan geldi: Hani şu geçtiğimiz sonbaharda tam on sekiz yaşına bastığı gün; Doğan'a inat, o da at yarışına katılmıştı. On iki gencin katıldığı o dillere destan at yarışında tek kız atlı oydu. Yarış başladı. Bir zaman sonra Doğan'la Şîve Naz diğerlerinden koparak bir hayli öne geçtiler. Şîve Naz, bu yarış günü kararlıydı; günlerdir aklında olanı yapacaktı. Son sürat atını koştu. "Nasıl oldu" o da anlamadı ama Doğan'a yetişti. Doğan'ın yanından geçerken yere bir şey attı ve hızla delikanlının yanından uzaklaştı.

Kız, nehrin kenarındaki büyük çınar ağacının arkasına atıyla bir saklandı. Ama gördü; gördü işte! Doğan, Naz'ın nazla işlediği o sarı güllerle ve yalnızca bir köşesini tek mor lale ile bezediği mendilini atından inerek yerden almıştı. Almakla da kalmamış, öpmüş ve özenle döşüne koymuştu.

O tatlı günden sonra Doğan'ın gittiği gün de dahil, bu at yarışını hiç kimse dile getirmedi. Ve elbette herkesin bildiği tek gerçek vardı: Yarışı Doğan kazanmıştı!...

Kız tekrar ufka baktı, gözleri buğulanmıştı: "Ama Doğan!.. Gideceğin gün bari… O gün, mendilden söz edebilirdin…" diye içerledi. "Hem, niye gittin ki? Demek ki, demek ki…"

Neredeyse, pencereden yukarıya, ufka düşecekti Şîve Naz! İçeri girdi, yalnız gergefin duyacağı şekilde, sessizce yeniden ağlamaya başladı… Renkli iplikleri göremez olmuştu…

Oysa o gün, o yarış günü mendili eline aldığında yüreğinin yerinden çıkacağını zannetmişti Delikanlı! Tıpkı, Selamlık'ta Ferhad babasına name yazarken elindeki hokkayı düşürdüğü gün gibi… O, şu anda avucunun içinde bulunan, bu boynu bükük laleyi iyi tanıyordu. Bu laleyi işleyebilecek tek kız; gönlünü kaptırdığı o eşsiz, o nazlı güzeldi işte. Ama bu güzel sırrı kimseye söylemeyecekti Doğan! Yıllardır aşını yediği, "ocağım" diye canını verdiği bu yerde, tek söz etmeyecekti gönlüne dair…

İki damla gözyaşı, o gencecik bıyıklarına düştü. Hemen toparlandı delikanlı; mendili aldı, kokladı ve özenle katlayıp döşüne koydu…"Bu bile yeter!" dedi yürekten…Bu bile yeter!..

İşte o gün, kararını vermişti delikanlı; artık buralardan gitmeliydi. Tek derdi vardı; bu gitme fikrini "babam" diye saydığı Ferhad Bey'e nasıl derdi? Aradan on gün ya geçmiş ya da geçmemişti; Bey Doğan'ı odasına çağırıp da o nemli gözleriyle ve hiç nefes almadan:

"Oğlum! Sana devlet kuşu kondu! Akıncı birliğine seçildin. Sana özel bir görev verecekler… Serhad boylarında, gazân mübarek ola!" dediğinde, sevinsin mi üzülsün mü bilememişti Doğan!.. Fakat kendisinin günlerce Ferhad Bey'e nasıl söyleyeceğini kara kara düşündüğü bu konunun kendinden evvel Bey tarafından dile getirilmesine çok şaşırmıştı, doğrusu…

Ferhad Bey'in son buyruğunu ve eline verdiği lale soğanlarını alırken Doğan evden ayrılacağı bugün, sabahın seherinde gördüğü o rüyayı da kimseciklere söylememesi gerektiğine inandı. Söylememeliydi, elbette…

İşte bu düşüncelerle bahçeye, Şîve Naz'ın yanına elindeki lale soğanlarıyla gitti. Naz kızı görür görmez, aklı bir şey söyleme derken, yüreğiyle bir çırpıda:

"Uykuya varmadan, sabahın ilk ışıklarıyla gökyüzünün sesini dinle!" diyebilmişti Ay Bala'sına…

Tohumun yarısını ay parçasının eline verirken yüreğini yerinde zor tuttu Doğan… Adı gibi biliyordu ki o sabah Şîve Naz, onun hallerinden ve dediklerinden hiçbir şey anlamamıştı… O gözlerin ufuk çizgisine bir nefes baktı:

"Affet beni Şîve Naz!"

Doğan, tohumları ekmelerinden hemen sonra arkasına bir an bile bakamadan nazdan, bahçeden ve evden uzaklaştı…

## Şahnaz Şahin

# Tökülür

Mən bu gecədən qorxuram,
Gözündən sirri tökülür.
Bir parça odun üstündə,
Qəlbimin təri tökülür.

Çağırsam da səsə çıxmır,
Can da son nəfəsə çıxmır.
Çəkirsən ahı qurtarmır,
Çırpırsan zəri tökülür.

Azdırır məni içində,
Asdırır dar ağacından...
Bilmirəm alma haçandan,
Allahdan bəri tökülür?!.

Nağılı yox danışmağa,
Ocağı yox alışmağa.
Peşimanam soruşmağa-
Hey dərdi-səri tökülür..

Beşikdən məzara gedir,
Sorma nə güzara gedir...
Misra-misra,sətir-sətir,
Bir haqq şairi tökülür!..

## Sündüs Arslan

# Ey Masal Yorgunu

Emir büyük yerden uyu gözlerim
Sen misin dünyanın hamalı bir tek
Dipsiz masallarda kuyu gözlerim
Sen misin fistanı yamalı bir tek

Bir göz kırpmak gibi geçti bak zaman
Duman duman sine kalmadı güman
Bu geç kalmışlığa ne desin aman
Sen misin âlemde hummalı bir tek

Geceler hüznüne kalıyor gebe
Yüreğin aklına oldu engebe
Sevda girdabında çeker en dibe
Sen misin huzurla kumalı bir tek

Gökyüzü yağmurla oynaşıp durur
Melal kırbacını sırtına vurur
O yare özlemin yakar, kavurur
Sen misin sararmış simalı bir tek

Ey masal yorgunu ey düş kaçağı
Ey gönül evimin damı saçağı
Gidip gelmelerden aşk salıncağı
Sen misin maziye kurmalı bir tek

Sen misin dağlara hep kafa tutan
Sen misin hasreti tende uyutan
Sen misin satırda pusuya yatan
Sen misin kelamı imalı bir tek

## Arzu Hüseyn

# İndi Həsrətinlə Nəfəs-Nəfəsəm

Bütün əvvəllərin yolu sonadır,
Bitəcək həvəsi görüşlərinin.
Ayrılıq azacıq nikotin dadır,
Tərkibi qətrandır öpüşlərinin.

Mən ki ta əvvəldən ürəyi qırıq,
Axı nə biləsən, hardan biləsən?
Sən vüsal donunda gələn ayrılıq,
İndi həsrətinlə nəfəs-nəfəsəm.

Yığıldı köksümə dərd yumaq-yumaq,
Əsən külək mənəm, yağan qar mənəm.
Axı necə olur həmişə, ancaq,
Bütün səbəblərə günahkar mənəm?

Qürurum ucuzmuş, vüqarın baha,
Böyük duyğuların ruhu kiçilib.
Qorxma, çıxmayacam qarşına daha,
Qorxma, yolsuzluqda qapı açılıb…

Adımı dəli qoy, yada sərsəri,
Min bir bəhanə tap qınağa, kinə.
Bütün kədərimin yolu sənədi,
Bütün qəzəbinin ünvanı mənə.

Daha əvvəlki tək gətirmirəm tab,
İndi ahlarıma mücrüdü sinəm.
Hayandan baxsan da, bəllidir cavab,
Bu eşqin uduzan tərəfi mənəm.

Bütün əvvəllərin yolu sonadır,
Bitəcək həvəsi görüşlərinin.
Ayrılıq azacıq nikotin dadır,
Tərkibi qətrandır öpüşlərinin…

Təranə Arifqızı

# Haqqını Halal Et Şəhidim

Bir gün yolum o torpaqlara düşəcək. Qan izlərin olan torpağa. Gülə-gülə qurban getdiyin torpağa. Hər damlayan qanından yarpaq-yarpaq göyərən ana torpağa. Halallıq almağa gələcəyəm.

Addım-addım əldə etdiyin azadlığın qanından süzülən sevinc dolu göz yaşlarını halal et. Göz yaşımda boğulub yenidən doğulacağam. Yenidən doğulmağımı halal et, ŞƏHİDİM.

Əllərindən, ayaqlarından, gözlərindən zinət vurmusan. Vətən torpağı böyüsün, bütövləşsin deyə qaraca torpağa dönmüsən buralarda. Üzümüz ağ olsun deyə, qara torpağa dönən şəhidim, halal et.

Az qalıb. Gələcəyəm, özümə yenidən ev-ocaq quracağam. Sənin qurban olduğun yerdə qurban kəsəcəyəm. Bağışla məni, ŞƏHİDİM.

Qanınla suvarılan torpağı əkib-becərəcəyəm Ac qalmamaq üçün, qızıl sünbüllü buğdanı üyüdüb yurd ətirli çörək bişirəcəyəm. Burnuma bir qoxu gələcək... Sənin qoxun, şəhidim. Günlərlə ac-susuz qalıb mənə bu toxluğu yaşatdığın üçün halal et.

Hələ həyətdəki yüzillik çinar ağacından bir yelləncək də asacağam. Uşaqlarım, nəvələrim mənimlə əylənsin deyə. Bağışla, nə olar. Sənin övladlarının əlindən alınan uşaqlıqlarına bağışla. Ata nəvazişinə, ata qoxusuna tamarzı qoyduğun körpənin “Ata, hardasan?” - deyən həsrət dolu səsinə, baxışlarına bağışla məni.

İrəli! - deyib dostlarını arxanca aparan zaman, düşmənə toy tutduğun yerdə bu daşlarda donub qalan oynaq bədəninə bağışla məni.

Oğluma, qızıma, nəvəmə, nəticəmə nişan aparıb, toy çaldıracağam, sənin qanınla qırmızı nişan örpəyinə bürünmüş bu torpağın üstündə. Halal et, ŞƏHİDİM! Nakam ömrünə, yarım qalan nişanına, toyuna bağışla məni.

Oxuduğun Vətən mahnısının sədalarına “Heyvagülü”, “Qaytağı”, “Vağzalı” sədalarını qatacağam. Yadımdan çıxmasan belə, yenə də gülə-gülə rəqs edəcəyəm. Üzündə donan nurlu təbəssümünü mənə bağışladın. Halal et, ŞƏHİDİM.

Rahat evimdə, azad torpağımda oturub sevdiklərimlə, dostla, tanışla telefonla şirin-şirin söhbət edəcəyəm. Övladlarımın telefon mesajlarına gözəl xəbərlərlə cavab verəcəyəm. Şəhidim, yarım qalmış sözünə, yazdığın son mesajlarına bağışla. “Anamdan muğayat olun”, “Övladlarım sizə əmanət. Təki Vətən sağ olsun!”, “Mən ölsəm ağlamayın, yerim narahat olar” - bu qürur dolu, sevgi dolu cümlələrin ağırlığına, acısına, həsrətinə bağışla məni, Şəhidim.

Mənim şad günlərim başladı artıq, şəhidim. Adını tutub, “Vahid, sorma, Vətən nədən yaxşıdır?” sualının cavabını yaşayacağam. Son anında, üçrəngli bayrağı anan kimi bağrına basıb göy üzünə ucalarkən cavabını ala bilmədiyin suallarına bağışla məni. Halal et, ŞƏHİDİM!

Harada xarıbülbül çiçəyi görsəm, sən ürəyimdən keçəcəksən. Həyətimizdə, evimizdə bu çiçəyi yetirib bitirəcəyəm. Yaşadacağam səni. Polad kimi möhkəm, sınmayan ruhuna, çiçək kimi solan zərif cisminə bağışla məni, ŞƏHİDİM!

Özünü qurban verib, Vətəni əmanət etdiyin və Vətənə əmanət etdiyin övladlarına, anana, bacına, atana, sevdiklərinə bağışla bizi... Haqqımızı düşməndən alıb, haqq dünyasına qovuşanım, özünün gələcəyinə Vətən adında qırmızı bir xətt çəkib, bizi bizə, keçmişimizə, gələcəyimizə qovuşduranım, halal et! HALAL ET, ŞƏHİDİM!

Minirə Dadaşova

## Mən Turan Sevdalıyam

Çəksələr dara məni, doğransam dilim - dilim,
Son nəfəsimdə belə, söyləyəcəkdir dilim
Qorxutmaz nə işgəncə, nə iztirab, nə ölüm,
Yenə də öz sözümdə dönməz, iddialıyam,
Mən Turan sevdalıyam!

Sanmayın bir köşədə uyumuşam, yatmışam.
Qəlbimdəki bu eşqi, bu sevdanı atmışam.
Damardakı bozqurdu yenidən oyatmışam,
Bütün Türk millətinin bax, bu günkü halıyam,
Mən Turan sevdalıyam!

Ərzurumdan haylayıb, Zəncanımdan hay verən,
Dadaşlardan yaranıb, Oğuzlardan soy verən ,
Kərkük, Tatar, Türkmən, Qırğızlardan boy verən,
Keçmişi Eldəgizlər dövləti, Osmanlıyam,
Mən Turan sevdalıyam!

Türk dilində yaratdı, daim qoca Şəhriyar.
İk dövlət, bir millət dedi şair Bəxtiyar.
Vətənimdə minlərlə  belə fədailər var,
Doğma ana yurduma varlığımla bağlıyam,
Mən Turan sevdalıyam!

Ərdoğanla, İlhamla vüsətlənən, canlanan,
Düşmənlərdən amansız qisas alan ,öc alan,
Ulu öndərimizdən bizlərə miras qalan,
Bu sözlə fəxr edirəm ki, Azərbaycanlıyam!
Mən Turan sevdalıyam,
Bir Turan sevdalıyam!!

## Şerife Sönmez

# Kelebek İle Yağmur

Ben bir kelebeğim.
Üstüme ağır bir yağmur damlası isabet etti.
Uçamıyorum.
Çünkü güneş ışınlarını engelliyor bulutlar.
Yağmur var burda.
Bir ahmak ıslatan misali...
Bense yürüyorum, yağmur damlasının beni mıhladığı taşın üzerinden aşağı doğru.
Güneşi bulmak ve yeniden uçabilmek için ağır aksak,
Otlar arasında,
Çelimsiz bacaklarımla,
Güneşimi arıyorum.
Isınmak,
Kanatlarımı kurutmak,
Tekrar uçabilmeye inanmak istiyorum.
Ey güneş!
Işınlarının ucuna umudu da bağlayıp,
Bulutların arasından gönderir misin?
Umudu ve ışığı...
Kanatlarımı kurutup,ısıtıp
Ayaklarımı da yerden kesebilir misin?
Vesselam!

# Mərziyyə Nəcəfova ilə Söyləşi

## Konuşturan: Lütviyyə Əsgərzadə

***Mərziyyə xanım, sizi daha yaxından tanıyaq.***

1997-ci ildən Azərbaycan Milli Elimlər Akademiyasının Ədəbiyyat İnstitutunda çalışıram. “Ədəbi Proses” şöbəsində işə başlamışam. O illərdə Qarabağ mövzusunda əsərlər yaransa da hələ mükəmməl şəkildə tədqiqata cəlb edilməmişdi. Həyat yoldaşım hərbiçi olduğu üçün son beş ili Murov bölgəsində yaşamışdım. Bir sözlə savaş, çətin illər. belə demək mümkünsə, həyatım oddan alovdan keçib. Qismətimə gəncliyimi sərt iqlimi olan Murovdağın ağır sınaqlarında yaşamaq yazılmışdı, bərkiyib, sərt qayaya çevrilmişdim. Döyüşçü və zabitlərin yaşantılarını müşahidə etmişdim. Qışda tara düşən, hərbi iş zamanı dünyasını dəyişən oğulların ağrısı sinəmə çalın-çarpaz dağ çəkmişdi. Düşündüyüm bir şey məni daha çox narahat edirdi. Sonralar bu fikrimi yazarlara da dedim. “Nə qədər yazsaq da Azərbaycan zabitinin, döyüşçüsünün bir gün yaşadıqlarını belə hələ qələmə ala bilməmişik”. Uzun zaman keçib. İndi Bakı şəhərində yaşayıram hər il şəhərə qar yağanda, o qar ürəyimə yağır. Murovdağda qar tarına düşən, (noyabırdan iyul ayına qədər) buza çevrilən əsgərləri və bütün bu aylar ərzində Murovdağa -Toğanaya , Ağsuya pay-piyada, əsgər balasından bir xəbər alsın deyə. dizin-dizin sürünən, cismini itirib, ruhuyla dolaşan valideyinlər-yaşarkən cansız heykələ çevrilən analar, qaməti əyilən atalar gözlərim önündən getmir. Akademiyayada elə o niyyətlə gəlmişdim, Azərbaycan döyüşçüsündən, Murov qartallarından, ədəbiyyatda qəhrəman döyüşçü və əsgərlərin obrazlarından bəhs etmək, yazılan bədii nümunələri araşdırmaq istəyirdim. Çox da çanslı oldum. Elmi rəhbərim Millət Vəkili, indi Polşada səfir vəzifəsində çalışan hörmətli Vilayət Quliyev oldu. İlk kitabıma ön söz yazdı, mənə inandı, “Qarabağ mövzusu bədii publisistikada” adlı namizədlik dissertasiyamı tez bir zamanda yazıb, müdafiə edəcəyimə inandı. Mən də onun zəhmətin yerdə qoymamaq üçün var gücümlə çalışdım. Müdafiədən sonra həvəsdən düşmədim, Qarabağ mövzusunda saysız kitablarım işıq üzü gördü. İllər sonra dəyərli alimimiz, institutun direktoru Bəkir Nəbiyevə “Müasir Azərbaycan poeziyasında Qarabağ” mövzusunda doktorluq işi yazmaq istədiyimi deyəndə heç təccüblənmədi. Mənim ailə vəziyyətlimlə bağlı bilgisi olduğu üçün “ Qızım, bu mövzunu işləmək sənin alın yazındı”, - dedi. Əslində hekayələrimin birində ata babamın 1941-45-ci illər müharibəsindən qayıtmadığını, müharibə ağrılarını vermişdim. Bəkir müəllimin də ailəsi müharibə ağrıların yaşamışdı. Bir dəfə Bəkir müəllimin otağının qarşısında otaqda oturumuşduq, içəridə doktorluq mövzuları ilə bağlı alimlərin müzakirəsi gedirdi. Alimlərdən biri “Qarabağ mövzusunu işləmək çətindir, Mərziyyə gəncdir, bu işin öhdəsindən gələ biləcəkmi? - deyə Bəkir müəllimdən soruşdu. Bəkir müəlllimin o sözləri hələ də qulağımdan getməyib. “Mərziyyə Qarabağ müharibəsini yaşamış, hərbiçi ailəsidir. Onun yaşadıqları ağır və çətin bir məktəbdir, mən inanıram ki, gənc dediyin bu xanım bu tədqiqatı ürəyinin hökmü ilə yazacaq.” Mən bu uzin illəri bir dəqiqə dayanmadan, bu mövzunu bir dəqiqə diqqətimdən kənarda qoymadan içimdə, yaradıcılığımda tədqiq elədim. İnanın sözümün səmimiliyinə, Bəkir müəllimin haqqımda dediyi o qiymətli fikirlər mənə bu ağır işin öhdəsindən gəlməyə güc verdi. (Ruhu şad olsun, ilk direktorum Yaşar Qarayevin də, Bəkir Nəbiyevin də). İlk illər elmi məsləhətçim olmasa da hörmətli akademikimiz İsa Həbibbəyli direktor gələndən sonra institutumuzun əməkdaşı əziz Asif Rüstəmlini mənə məsləhətçi təyin etdi. Və bizim Asif Rüstəmli ilə birlikdə işləməyimiz mənə kömək oldu. Lütviyyə xanım. sualınız məni görün haralara apardı, cavabıma oxucularımın dodağı qaçacaq, bilirəm, amma konkret olaraq bu suala belə cavab verəcəm. Mən həyatında. həm bədii, həm də elmi yaradıcılığında Vətən və vətənpərvərliyi canı ilə, qanı ilə yaşayan, gəncliyini bu yolda yaşayan bir aliməm, yazıçıyam, ən əsası Ulu Öndər Heydər Əliyev tərəfindən,

savaşın qızğın çağında döşünə "Azərbaycan Bayrağı taxılan bir hərbiçinin yolu ilə gedən bir xanımam.

Filologiya elmləri doktoru, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Müstəqillik dövr Azərbaycan ədəbiyyatı" şöbəsinin baş elmi işçisi, Azərbaycan Yazıçılar Birliyinin üzvüyəm.

***Mərziyyə xanım, sizin tədqiqatlarınız əsasən Qarabağ mövzusundadır. "Qarabağ mövzusu bədii ədəbiyyatda" (2002), "Müasir Azərbaycan ədəbiyyatında Qarabağ mövzusu" kitabı (2005), "Poeziya və Qarabağ problemi" (2009), "Qarabağ mövzusunun işlənmə istiqamətləri monoqrafiyası" (2009), "1990-cı illər Azərbaycan ədəbiyyatında vətənpərvərlik motivləri" və s. Yeni kitabınız nəşr olunub, "Savaşdan qələbəyə - azad Şuşa ədəbiyyatda." Bu yaxınlarda zəfər şərbəti dadan daha bir məqalələr toplunuz işıq üzü gördü. Kitabın adı da ruhumuza nur verir."Savaşdan qələbəyə-Azad Şuşa ədəbiyyatda". Təbrik edirik. Xeyirli-uğurlu olsun. Bu kitab sizin "Qarabağ" mövzusunda yazdığınız sonuncu kitabıdır. Kitab haqqında nə deyə bilərsiniz?***

Lütviyyə xanım, Qarabağ mövzusunda on iki kitabım (elmi və bədii) çap edilib. Hərdən düşünürəm ki, hələ yaşadıqlarımın və müşahidə etdiklərimin yarısın belə yazmamışam. Açıq etiraf edim ki, onları real şəkildə yazmağa ürək tab gətirmir. Bir hekayəm vardı. "Şəhid anası", həmkarımız Şövkət xanımın yeganə oğlu Azər haqqında idi. Amma əslində, bütün şəhid analarının yaşantısı idi. Ananın şəhid oğlunun ziyarətindəki səhnələr dəhşət doğururdu. Və mən bu səhnəni anamın həyatından müşahidə etmişdim. O hekayədən sonra günlərlə özümə gələ bilmədim.

Siz zəfərdən sonra yeni ruhda və ampulada yazdığım "Poeziyamızın Qarabağ savaşı-Vətən müharibəsi" monoqrafiyamın adını xüsusi olaraq qüyd edirsiniz. Kitaba Akademik İsa Həbibəylinin "Qarabağnamələrin ədəbiyyat mərhələsinin elmi dərki" başlıqlı möhtəşəm bir ön söz yazması kitabın dəyərini daha da artırmışdı. İnanın səmimiyyətimə elm yolunda mənə dəstək olan qiymətli alimlərimizi həyatımdakı ən böyük şansım kimi dəyərləndirirəm. Hörmətli İsa Həbibbəylinin Qarabağ mövzusunda yazdığım əsərlərə belə dəyər verməsi məni hər zaman uğurdan uğura səsləyir. Yeri gəlmişkən mənə yol göstərən hörmətli alimlərimizə, ilk şöbə müdirim hörmətli Akif Hüseynov da əlavə olmaqla, dərin təşəkkürlərimi bildirir və uzun sağlıqlı ömür arzu edirəm.

Onu qeyd edim ki, bu kitab Azərbaycan xalqının və Ali Baş Komandanın ilk qələbə sevincindən yarandı. Bu kitabı yazmaq üçün 30 il həsrətlə gözləmişdim. Bu kitabda yüzlərlə zəfər poeziyası, Şəhidliyin qəhramanlıq səviyyəsində əksi, Ali Baş Komandana həsr edilmiş şeirlər, poemalar, Azad Şuşanın poetik ifadfəsi, Döyüşçü obrazlı nümunələr, Qarabağ savaşında xalqımızın yanında olan və Ali Baş Komandanımızı bir an belə tək qoymayan türk xalqı və Cümhur başqanı Tayıb Ərdoğan birliyi və bərabərliyi mövzuları haqqında tədqiqatdır. Bir sözlə, bu kitab Zəfərin ilk sevincinin ifadəsidir. İlk övlad kimi ürəyi sevincə qərq edən, nəhayət ki, bu sevincin şirinliyini, dəyərini oxxay deyə qələmin öhdəsinə verərək, Azərbaycan şəhidininə "Qanın yerdə qalmadı, rahat yat, Azərbaycan oğlu", - deyə bilməyin bir fürüsətidir. Ali Baş Komandana bir minnət borcudur, şəhid anasına "müqəddəs qadın sənin vətənə bəxş etdiyin övlad başımızın tacı, vətənimizin əsl vətandaşıdır". - deyə bilməkdir.

***Mərziyyə xanım, araşdırmalarınızda Qarabağ müharibəsi fonunda Azərbaycan-Türkiyə birliyinin, İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan qardaşlığının ədəbiyyatdakı bədii əksi kimi məsələləri ulu öndər Heydər Əliyevin "tək millət və iki dövlət" prinsipi əsasında dəyərləndirilir. Bu barədə nə deyə bilərsiz?***

Əslində zəfərdən sonrakı hər iki kitabımda bu savaşda bizə qardaş olan türk xalqı və Ali baş Komandana qardaş olan Rəcəb Tayyib Ərdoğan obrazını əsas götürmüşəm. Tez bir zamanda saysız dərəcədə şeirlər, qiymətli poemalar yarandı ki, bu əsərlərdə bir vəhdət var. Xalq, Ali baş Komandan, Azərbaycan Ordusu. bu birliyə dayaq olan türk xalqı və Rəcəb Tayyib Ərdoğan. Yazarlarımızın yaradıcılığında bu dostluğun son illərin dostluğu olmaması diqqətə çatdırılaraq, illər öncə türk ordusunun

Azərbaycanın bir çox bölgələrini erməni vandallarından təmizləməsi məsələsi də qoyulur. Ulu Öndərin türk xalqına sevgisi və hər zaman “tək millət, iki dövlət” ifadəsində bu birlik ilk olaraq vurğulanmışdır. Son zamanlar elə bir poema yoxdur ki, o əsərada bu dostluq və bərabərlikdən bəhs edilməsin. Bu poemaların əsas ideyası Azərbaycan-Türkiyə, birlik və bərabərlik, dövlət başçılarımızın dostluq və qardaşlığıdır.

***Siz, daima ədəbiyyatda Qarabağın mövzusunu tədqiq edirsiniz. 30 illik haqq savaşımız zəfərlə taclandı. Hamımız qürurluyuq. Qalib ölkənin vətəndaşı olmağımızın qürurunu yaşayırıq. Siz bir alim, şairə, ən əsası vətəndaş olaraq bu barədə nə deyə bilərsiniz?***

İnanın bu sualı oxuyanda gözlərim önünə Ali baş Komandanın televiziya çıxışları gəldi. Bir az sevinc göz yaşı, qürur və fəxarət. Əyilmiş belimizin bir an içərisində şuxlaşan qaməti. Ən əsası isə, bu qürurun sözlə ifadəsini, Ali Baş Komandanın ifadəsi ilə demək istərdim. Yüksəklərə qalxmış dəmir yumruq və “Qarabağ Azərbaycandır nida!”

***Mərziyyə xanım, bir ilə yaxındır ki, Türkay Aylıq Ədəbiyyat dərgisi yayınlanır. Türkay dərgisi Türk Dünyası qadınlarına verilmiş bir tribunadır. Hər kəs özünü burada ifadə edə bilir. Dərgidə qadın yazarların hekayə, şeir, tanıtım, esseləri yayınlanır. Türkay dərgisinə münasibətiniz?***

Bir yazara lazım olan bütün gözəlliklər bu dərgidə bir araya gəlib. Çox qiymətlidir “Türkay” dərgisi Bu dərgidə türk dünyasının qadın yazarlarının birliyi, gözəl münasibəti, qiymətli yaradıcılıqları öz əksin tapır. Bundan gözəl nə ola bilər ki... İlk öncə təbii ki, jurnalın yaradıcılarına təşəkkürlərimi bildirirəm. Uzun ömürlü olsun “Türkay” dərgisi deyirəm. Müəlliflərinə isə qiymətli əsərlər yazmağı arzu edirəm.

***Ümummilli lider Heydər Əliyevlə Mustafa Kamal Atatürkün adı həmişə qoşa çəkilir. Hər iki lider xalqı qarşısında əlində gələni əsirgəməyib. Bu il Heydər Əliyevin 100 illik yubileyi ölkəmizdə, bütövlükdə Türk dünyasında yüksək səviyyədə qeyd olunur. Sizin bu yubileyə töhfəniz nədir?***

İlk öncə onu deyim ki, mən Ədəbiyyat İnstitutu üzrə YAP’ın sədriyəm. Bizim bu sahədə geniş şəkildə işlərimiz, tədbirlərimiz, təbii ki, bu il daha da saysız olub. Ulu Öndərin Azərbaycan dili ilə bağlı, Azərbaycan Ordusu ilə bağlı, Azərbaycan gəncləri ilə bağlı saysız tezislərim çap edilib. Onlarca bu mövzuda konfranslarda məruzəçi olmuşam. Bu ilin aprel ayında, may ayında Türkiyədə və Azərbaycanda məruzələrim olub. Hər iki lider Musatafa Kamal Atatürk və Ulu Öndər Heydər Əliyev haqqında məqalələrlə mətbuatda iştirak etmişəm. Ölməz liderlərin xarakterlərindəki oxşarlıq, xarici görünüşlərindəki oxşarlıq poetikləşdirilib. Hər iki lider Türk dünyasının baş tacıdır, Türk dünyası var olduqca əziz xatirələri qəlbimizdə yaşayacaq.

***Siz, həm də AYB üzvü, gözəl şeirlər müəllifisiniz. Sevdiyiniz bir şeiri dinləyə bilərikmi?***

“Türkay” dərgisinin oxucuları üçün “Daha mənə gəl demə!” şeirimi oxuyum:

Hərdən mənə gəlmə denən
Xətrimə dəy, qurban olum.
Ümidim yox sonrasına
Sənə belə bağlanmayım.
Gələndə də həsrətlə
Gözlərimə baxma nolar,
Sevgi olub məhəbbətlə
ürəyimə axma nolar.
Könlünə buraxma məni,
Qoy kənardan baxım gedim
İtirmişəm o vədəni
Daha gecdir çıxım gedi.

***Müsahibə və oxudugunuz gözəl şeir üçün təşəkkür edir. Sizə elmi yaradıcılığınızda uğurlar arzulayıram***

Lütviyyə xanım. Mən də sizə təşəkkür edirəm. Verdiyiniz suallara və müshibə üçün məni seçdiyinizə görə. Arzu edirəm ki, bu rublika davam etsin. İşlərinizdə uğurlar diləyirəm. “Türkay” dərgisi həmişəyaşar olsun!

## Şəbnəm Tohidi

# Darıxan Qadın!

Darıxan qadın şəklidir payız...
Sarı donlu,
İncə belli,
Qızıl telli,
Əsil qadındı,
Sevən, sevdirən, ağladan...
Adindan bəlli...

Ağlayan qadın şəklidir payız,
Üzü divara çəkilib,
Əlləri qoynunda...
Müəmmadır çöhrəsi,
Sırrdır duruşu,
Möcüzədir sevdası...
Amma yenə də tam bir qadındır.

Solan qadın şəklidir payız,
Nəfəs - nəfəs ölər,
Addım - addım itər...
Yavaş - yavaş əriyib, yox olar xəyalı,
Baxdıqca doymazsan rənglərindən,
“Üzünü bəri çevir” diyə yalvararsan bəzən,
Yalvararsan eşitməz...
Laldır o qadın,
Laldır payızın gəlişi...

## Meryem Küçük

# Son Veda

Zaman puslu kırbacını
Kana batırıp batırıp
Çocukların göğsüne saplarken
Yıkılır sütunları bir bir
İnşası cennetten şehirlerin

Kehribar bakışlı gözlerin
Kanla sulanan çöl renginde
Derininde en derininde
Hasretle geçen
Ömür tünelinde
Durulacak gibi değil
Göğsündeki mahşer

Eşkâlin kayboluyor
Aradığım tüm sokaklarda
Namluya konuyor
Ateş oluyorsun
Yak bütün cihanı
Belki yeniden yazılır
Tutsak bir ülkenin kaderi
Çocukların gülüşünden
Kuşların telaşından
Uçurtmaların coştuğu
Rüzgârla savaşından
Gül nakşından
Mana kanatlarından

Dilarə Adilgil

# KeyQubad, Bərgüşad Mahalı və Bugünün Qubadlısı (Müharibə Xronikasından)

*Gecələr qrad atırdılar, qızara-qızara gəlirdi, səsi də vahiməli id, eşidəndə yerə yatırdıq.*
*(Uşaqlıqlarını Qarabağda qoyub gələnlərin xatirələrindən...)*

İşlədiyim şöbə qarabağlılardan ibarətdir. Acılı-şirinli, sevincli-kədərli xatirələri ilə yaşayıb gedir-lər. Keçmişində şirini, doğmaları, sonrasında həsrəti, bu günündə yeni ümidləri ilə. Rasta uşaq olan-da çıxıb Qubadlıdan. Amma sözü-söhbəti də elə Qubadlıdır. Gözləri yol çəkə-çəkə “Yazı düzü”nü mənə təsvir edir... Yaylıq kimi dalğalanan qıpqırmızı lalə dənizini sanki görürəm. Dəlicəsinə çiçək-ləyən lalələrin altındakı mina “yataqlarını” da... Qırmızı və qara. Frederik Stendalın əsəri deyil... Xeyir və şərin dueti. Sonuncu dəfə 1987-ci ildə öz maşınları ilə İrəvandan keçib Kislovodska get-məklərini xatırlayır. Qayıdanda görüblər ki, ara qarışıb. Danışır ki, evimiz rayonda “kastinsa” (qos-tinisa) adı ilə tanınırdı. 3 mərtəbəli idi, işğalda da son günə qədər dağıtmamışdılar, çaxır fabriki kimi işlədirmişlər, tərk edəndə yandırıblar. Hətta, birinci mərtəbədəki iri soyuducumuz da durur, sınıq-salxaq günə qalsa da.

– Həyətimizdə marala qədər varımız idi. Rayonda bir ovçu vardı, adına “quş Əhməd” deyirdilər. Həyətində heyvanxana düzəltmişdi, əsas da vəhşi və qırmızı kitaba düşən heyvanlardan. Heyvanla-rı tərtəmiz qəfəslərdə, kök, tox, baxımlı saxladığı üçün uşaqlı valideynlər buradan əskik olmurdu. Kiçik qardaşım əl çəkmədiyindən quş Əhməd balaca bir ceyranı ona bağışlamışdı. Bu bala ceyran da bizimlə bir böyüməyə başladı və yekəldikcə də, qulaqlarını evin, hasarın divarlarına qanı çıxana qədər sürtürdü, uşaq diş çıxaranda əlinə keçəni damağına sürtən kimi... Demə, ceyran yox, maral imiş. Multfilmlərdə göz qabağında heyvanlar böyüyən, meyvələr yetişən, güllər açan kimi, bizim körpə ceyran da qısa zamanda gözəl buynuzlu marala çevrildi...

Söhbətin axırını eşitməyə tələsdiyimdən səbirsizliklə soruşuram:

– Sonra nə oldu, Rasta?

– Sonra... ermənilər gəldi. Özümüz necə çıxdıq bilmədik, amma atam ilk onu yerləşdirdi, maşına qoyub apardı, “sənsə azad ol” deyib meşəyə buraxdı.

Başqa qaçqınlardan da eşitmişdim, evlərini qoyub çıxanda ilk iti açıb buraxırmışlar. Körpə uşağı gözünün içinə baxa-baxa öldürən, sahibinə vəfalı heyvana acıyar?

“Qubadlı azad olandan sonra bizə həyətimizdən torpaq gətirdilər. Açanda ağladıq... Həmin o so-xulcanlı torpaq idi. Anam deyərdi ki, soxulcanlı torpaq münbit olur. Aparıb qəbrinin üstünə tök-düm, “ana, bax, sənə çox sevdiyin Qubadlı torpağı gətirmişəm”, – dedim. Torpaq dəyişməmişdi. Sərvəti yağmalansa da...

Palıd bu yerlərin arxası, vələs dövləti idi. Mütəxəssislər işğalsonrası real vəziyyəti qiymətləndirə-rək hesablamış, bu nəticəyə gəlinmişdir ki, 300 illik qoz ağacları, iberiya ağcaqayını, saqqızağac, söyüdyarpaq armud, kiparis, qırmızı palıd və eldar şamlarından ibarət hektarlarla yaşıl massiv, münbit torpaq qatı ermənilər tərəfindən məhv edilmişdir. Hərəsinin yaşı 1600 il hesablanan 3 ədəd Şərq çinarı torpağın Qubadlıda ucaltdığı təbiət abidəsi idi. Görməmişlər vəhşi barbar kimi meşələrin canına daraşmış, daşınanı daşımış, apara bilmədiklərini qırıb yandırmışdılar. Əslində dəyişməyən bir torpaq qalmışdı, bir də çaylar... Düşmən yeddibaşlı əjdaha kimi çayın qabağını kəsib suyu geri vururdu. Onlar da azad oldu, suları duruldu.

“Su həyatdır. Hər axan suyun bir hədəfi vardır, o, həyatı paylaşmaq üçün bir yerlərə daşır…” Gələnlər danışır ki, yenə də Bərgüşadın

suyu isti, Həkəri buz kimidir. Adların gözəlliyinə bax... Eşi-dəndə də elə bil çay kimi axır, qulağa layla çalır. Laçınlılar deyir ki, biz Qubadlı demirdik, "çay" deyirdik. "Çaya getdik, çaydan gəldik…" Rayonda çay çox olduğu üçün. Ağalar, Daşlı dərə, Taxta-körpü çayları Qubadlı təbiətinin yaraşığıdır.

Lakin bu torpağın ən böyük sərvəti onun istedadlı, vətənpərvər insanlarıdır. Xalq yazıçıları Sü-leyman Rəhimov və Cəlal Bərgüşad, Xalq şairləri Qasım Qasımzadə və Ramiz Rövşən, xanəndə Ağabala Abdullayev Qubadlının adını elə onun igid övladları – xalq qəhrəmanı Qaçaq Nəbi, gene-ral-mayor Mais Bərxudarov qədər yüksəkliyə qaldırmış, tanıtmışlar. Şair Eldar Baxış son nəfəsində "Qubadlı alınanda sümüklərimi ora aparıb atamın yanında basdırarsınız" vəsiyyətini etmişdi. Lələtəpə yüksəkliyi uğrunda gedən döyüşdə Mais Bərxudarov tankın üstündə öndə gedərək, ordunu da arxasınca aparmışdı. General-mayor rütbəsi də ona elə göstərdiyi bu qəhrəmanlığa görə verilmişdir.

Qubadlı azad ediləndən sonra deyirdilər ki, rayonda yiyəsiz donuz və erməni meyidi əlindən gəzmək olmur. Nə düşündürücü paralel... Qubadlı hara, donuz hara? At izi it izinə qarışıb. Gizli hikməti görməmək mümkün deyil, hər kəs özünə oxşayana can atar, yanında onu görmək istəyər. İşğaldan qabaq hər ağacın başı hacıleylək yuvası imiş. İndi həmin ağacların altında, çirkabın, ifraza-tın içində yaradanın "xoşuna gəlməyən heyvan"lar eşələnir.

Necə də utanmırlar. Nə olar düşmən olanda? Axı indi görürük necə yaşadıqlarını, eyiblərini, murdarçılıqlarını... Bu qədər xarici jurnalist, nümayəndə heyəti gəlir Qarabağa. 10-u "görməsə" də, biri görür axı, çəkir, göstərir. Heç olmasa onlardan da olsa, utanırlar? Axı insan həmişə pisini gizlə-dər. Özü də düşməndən. Bəli, bu da sualıma özümün cavabım. İnsan deyillər! Olmayacaqlar da! İn-sanlıq hara, erməni hara? Hərə özünə yaraşanı edir. Bir yaxşı tanışım var, əri atıb, başqa qadının ya-nına gedib. Olur... Mövzu da o deyil. Siz görəsiz, həmin qadın keçmiş əri üçün nə boxça yığdı... Bəy boxçası. Bütün paltarlarını yudu, ütülədi, tikdi, çatmayanı aldı. "Allah vurmuşdu onu" deyən-lərə qısaca: "Mənim adımdır", – dedi.

Bir az lirikanın yeri var… Belə bir yarıgerçək var ki, proza içindəki poeziyanın hesabına indiyə qədər yaşayır. "Elə ki, payız gəldi və şəhər təzədən çadırşəbini başına çəkdi, şəhərin övzalı tama-mən dəyişilir". Əbdürrəhim bəy… Havalar soyumağa, "göylər payızla nəfəs almağa" başladı... Puş-kin… İndi hər şeyi havanın üstünə atmaq, ağır halsızlığa, yüngül əzginliyə "havadandır" donu ge-yindirmək bir adət olub. O da bu ədalətsizliyə etirazını öz hadisələri ilə bildirir. Amma ən azından unuduruq ki, hava dəyişməsəydi, on nəfərdən doqquzu söhbətə nədən və necə başlayacağını bil-məzdi. Hava durumu haqqında dünyanın bütün yaradıcı adamları öz sözünü deyib. Şeirdə, nəsrdə, musiqidə, kinemotoqrafiyada, akvareldə... Həmişə də bu mövzunun romantik çaları olub, qəlbimizi isladıb. "Santyaqoda yağışlar yağır", "Yağış bütün izləri silir", "Bakıda küləklər əsir", "Nyu-Yorkda payız", "Şirin noyabr", "Payız haqqında əfsanə", "Sinoptik"… "Bir axşam taksidən düşüb payı-za...", "Göz yaşları için-də payız dul kimi..." və daha nələr, nələr. Yaradıcı insanlar çox zaman ro-mantik olduqları üçün bu sıranı sonsuza qədər uzatmaq olar. Hər kəsin qəlbinin öz havası var, hər qəlb bir cür meteohəssasdır. Kiminin qəlbində həmişə şimaldır, kimininkində Şimal buzlu okean. Kimə isə günəşli tərəf daha çox düşüb...

27 ildən sonra Qarabağın hava məlumatı yenidən gündəmə gəldi. Şair Şücaət ölümündən qabaq yazmışdı:

Yavaş-yavaş unudulur Kəlbəcər
Bəzi ürəklərdə odu qalıbdı
Hava bürosunun məlumatında
Səkkizcə hərflik adı qalıbdı…

Əlimizi yelləyib, başımızı bulayıb, kövrələrək "kimin üçün?" deməyib ("əsla" dediyimiz nə varsa qapının ardındaymış məgərsə"), bütün varlığımızla müharibə gedən ərazilərimizdəki

meteo dəyişiklikləri həyəcanla izləməyə başladıq.

Payız, səndən bir ricam var:
Çox tələsmə, qoy geciksin boranlı qar...
Vətənimin yad əllərdə hələ əsir torpaqları
Döyüşlərdə əsgəri var...
(Güneydən olan Yusif Savalanın nəğməsindən)

Ən çox da daxili hava proqnozuna Şuşadan başlamaları ləzzət edirdi...

Telefon zəngi məni Qarabağın havasından ayırdı. Nəzrin idi, ortancıl nəvəm... Rus məktəbində 9-cu sinifdə oxuyur. Azərbaycan dilindən tapşırıq həll edirdi, kömək istəyirdi, özü də gülə-gülə:

– Nənə, privet, “evin yıxılsın” cümləsinə antonim nə yazım?

– Evin tikilsin!

– Bəs, “Allah qorusun?”

Duruxdum. Yenə də, “lənət şeytana” deyib cavab verdim:

– Allah öldürsün...

– A esli, “bəbbəxt olasan?”

Bu hal gülməli olmaqdan çıxırdı... Yaxşı ki, “Allah başına daş salsın”ı soruşmur tapşırıq… Bu fikirlərlə və küçədən səs eşitdiyimdən pəncərəyə yaxınlaşdım. Külək yağışı qabağına qatıb qovur-du. Bir anlıq baxdığım hissəyə qaranlıq çökdü. Quşlar qatarla isti ölkələrə köçürdülər. Bəlkə də, bi-rinci dəfə idi bunu canlı görürdüm. Uşaq vaxtı payızın təsvirinə köçəri quşları çəkməklə başlayır-dım. İki qövsü birləşdirib bir-birinin ardınca düzür, uçub gedən dəstəni öz aləmimdə belə təsəvvür edirdim. İbtidai sinif kitablarımızda da uzaqlaşan durnaların üçbucaqlı qatarı payız mənzərəsinin parçası kimi yadımda qalıb. Əsl hava içimizdə olandır... Cəbhədəkiləri fikirləşdim. Əfqanıstanda vuruşmuş bir əsgərin sözlərini xatırladım: “Qışda çayda çimmişəm”. Burnuma barıt qoxusu gəldi... Döyüş zonasından uzaq, lakin döyüşün tam ortasında olan, ermənilərin ikinci “Stalinqrada çevir-mək” istədiyi Tərtəri, Gəncədəki, Mingəçevidəki mülki əhalini düşündüm. Hələ qədim Arranın ana-sı, paytaxtı Bərdə… Mənbələrdə “Qafqaz Albaniyasının qəlbi” adlandırılan, hər daşının üzərində əsrlərin tozu olan Bərdə. Müharibənin başlanmasından 1 ay sonra – oktyabrın 28-də əli yerdən-göydən üzülən düşmən Bərdəyə içərisində 144 bombacıq olan “Smerç” tipli 2 ədəd ballistik raket atmış, nəticədə 27 nəfər dinc sakin şəhid olmuş, 70 nəfər yaralanmışdı. Düşündüm deyəndə ki, elə işimiz, əlimizdən gələn onları düşünmək, nəfəs çəkmədən dua etmək idi. O mülki əhalini ki, atışma kəsəndə narahat olur: “Birdən müharibə dayanar a? İşimiz yarımçıq qalar. Onsuz da təzyiqlər çox-dur. Heç vaxt Qələbəyə bu qədər yaxın olmamışıq...” Bu görünməmiş hadisə, həyat-məmat məsə-ləsi idi. İnsanlar şəxsi maraqlarını ümummilli maraqların içərisində əridib qələbə, intiqam təşnəsi ilə müharibənin sona qədər davam etməsini istəyirdilər. Dünyanın heç bir xarabasında arxada bu qədər itki olmur. Bilmirdik ön cəbhədə şəhid olmuş əsgəri ağlayaq, yoxsa onun evdə beşikdə uyuyan ba-lasını. Dünya da rəsmisi-sıravisi qatışıq divanda oturub bizə fokuslanmış nəzərləri ilə bu dəhşəti iz-ləyirdi.

Kaş elə dərdimiz dərslikdəki qüsurlar olaydı... Qarabağda isə bu an leysan, dolu, güllə, mərmi, korona və erməni virusu yağırdı. Qarabağda havanı əsgərlərimiz təyin edirdi.

## Səidə Əliyeva

# Qəm İzi Var Gözlərində

Gül-çiçək açıb təbəssüm üzündə,
Dünyanın sevinci var gülüşündə.
Arı pətəyi, şirini bal sözündə,
Baharın təravəti üz-gözündə,
Nədən kədər-qəm izi var gözlərində?

Dünyanı dolaşdı saf arzuların,
Şeirə, nəğməyə könül bağladın.
İstedadınla, zəkanla ucaldın,
Ömür yollarını nura boyadın,
Nədən kədər-qəm izi var gözlərində?

Səni öz dünyandan qopardı illər,
Günləri illərə caladı illər.
Əfsanə, möcüzə yaratdı illər,
Halal zəhmətinlə yaşatdı illər,
Nədən kədər-qəm izi var gözlərində?

Xəyallar, arzular qanadlananda,
Nurla bəzənər gözündə dünya.
Səadət qonar, boylanar yoluna,
Günəş gülər üzündə, söylə amma
Nədən kədər-qəm izi var gözlərində?

Tale, zaman xoşbəxt ömür bəxş edər,
Ürəyində xoş ümidlər göyərər.
Könlünə sevinc-səadət gətirər,
Baxışından qürur-fərəh tökülər,
Nədən kədər-qəm izi var gözlərində?

Bahar buludları kimi kövrəksən,
Hərdən görünər gözündə duman-çən.
Yağışlı səma tək tutqundu çöhrən,
Doluxsunub ələnərsən heç nədən,
Nədən kədər-qəm izi var gözlərində?

Bu gözəl həyatda varsan nə yaxşı,
Ömrünün yolları nurlu, işıqlı.
Xoş ümidlər soraqlı sabahları,
Ən ülvi istəklər arzu, amalın,
Nədən kədər-qəm izi var gözlərində?

**Sərvanə Dağtumas**

## Qızıma "Nəsihətamiz" Məktub

Əziz qızım! Doğulan andan bu dünyada əyninə bir rol biçirlər, bir damğa vururlar sənə. İlk növbədə bu stiqmanı sənə "geyindirirlər": "qız uşağısan!"

O gündən etibarən daima bu damğa ilə gəzirsən. Bu "adı" əyninə geyinirsən. Yaraşmasa da geyinməlisən. Daim bu damğa ilə təqib olunursan. Qız uşağısan düz otur, qız uşağısan gülmə, qız uşağısan az danış, qız uşağısan evləri yığışdır, qız uşağısan gir qəbirə. Bəli, səni bu təqibə layiq bilirlər. Ümumiyyətlə, sənin cinsiyyətinin qız olmağı böyük problemdir. Günah sənin anandadır. Oğul dünyaya gətirmədiyi üçün əzaba, iztiraba məhkumdur. Bu yükü ömür boyu daşıyacaq, bu "günahını" yumaq üçün həyat yoldaşına, onun ailəsinə kölə olmağı seçəcək. Axı, çox böyük bir günah iş tutub: qız uşağı, yəni səni dünyaya gətirib.

Sonra nə olacaq? Sonra sən böyüyəcəksən. Gecə vaxtı küçəyə çıxa bilməssən, mağazaya gedə bilməssən, oğlanlarla oyun oynaya bilməzsən, sən axı qız uşağısan. İşdi, sənə kimsə söz atsa, kimsə təcavüz etsə, deməli günah səndədir. Gecə vaxtı orda nə işin vardı? Niyə qısa geyinmişdin? Niyə makyajdan istifadə etmişdin? Sənə nə edirlərsə, sənin özün buna şərait yaradırsan.

Əgər bədənində fizioloji dəyişikliklər baş veribsə, artıq ailə qurmağın vaxtıdır. Bəli, yaşın lap 13 olsun. Ən geci 20 yaşında evlənsən belə, biabırçılıqdır, sən ki onda evdə qalmısan. Sən mütləq evlənməlisən və təmiz olmalısan, səndən bunu tələb edəcəklər, nəbadə kişinin keçmişinə toxunasan. Beləliklə, "qız uşağısan!" mərhələsindən "qadınsan!" mərhələsinə keçid başlayacaq. Sən Şah Abbas nəslinin davamçısı olan həyat yoldaşının nəslini davam etdirməlisən, ona oğul övladı dünyaya gətirməlisən, özü də qısa müddətdə. 1 aydan gec olsa, deməli, sənin bir qüsurun var. Təhsil almaq, oxumaq sənə görə deyil. Qız uşağı oxumaz, oturar, evinin qulluqçusu, nökəri olar. Sənin ailədə funksiyan ancaq bozbaş bişirmək, sənə nə desələr, nə etsələr də susmaq, tabe olmaq, bir də övlad dünyaya gətimək olacaq. Təhsil alsan, gözün açılacaq, işləsən, qazancın olacaq və sonra nə olacaq? Sonra sən əxlaqsız olacaqsan. Bəli, bəli, düz eşitdin, əziz qızım.

Əsla boşanmağı ağlından keçirmə, mütləq yoldaşın səni tapıb öldürəcək. Boşansan, əxlaqsız olacaqsan, unutma. Sən ərinin evindən ancaq kəfənlə çıxa bilərsən. Səni döyə də bilər, yaxşı at özünə qamçı vurdurmaz axı. Sənə xəyanət də edə bilər, axı o "kişidir", onu, onun tətmin olmayan hisslərini, doymayan nəfsini başa düş, sən qadınsan. Sənin yuduğun paltarı geyinib, bişirdiyin yeməyi yeyib gedib özünə məşuqə axtarsa da, sən sus. Sənin borcundur ki, sənə xəyanət edən, ailəsini, övladını bir məşuqəyə satan kişiyə nəvaziş göstərəsən.

Amandır, birdən sən xəyanət edərsən, sənin başını kəsər, eşitdin? Ev işlərini ancaq özün gör, ailədə bərabərlik prinsipi olmur,bunu sənə kim deyir? "Həyat müştərəkdir" xurafatını unut. Övladına da özün zəhmət çək, bax. Sən dünyaya gətirmisən, ancaq sən onun qayğılarını çəkməlisən. Quranda yazılan qanunlar ancaq qadına şamil olunur, kişiyə heç bir aidiyyəti yoxdur. Təmiz, namuslu olmaq, evinin, ailənin qulluqçusu olmaq, ağıllı, təcrübəli olmaq ancaq sənə şamil olunur. Sən kişiyə möhtacsan. Başa düşürsən? O güclüdür, sənsə zəifsən. Hara getsən, ərindən icazə almalısan, mağazaya, salona getmək vacibdirsə, yoldaşından icazə al, icazə versə get, verməsə, qadın xeylağının mağazada, salonda nə işi var? Əsas odur ki, yoldaşın alır, gətirir, səni "saxlayır", pul qazanır, içmir, çəkmir. Daha nə lazımdır sənə? Sevgi, qayğı? Sən nə danışırsan? Dəli olmusan? O ancaq nağıllarda olur,əziz qızım, bu həyatda hər şey puldur.

Sabah oğlun olsa, ona gözəl sünnət toyu et, axı o kişidir, çoxlu qonaq dəvət et, ağ gəlinlik geyin, başına 250 kiloluq tac qoy. Amma unutma, birdən qızın menstruasiya oldu. Vay, vay, fəlakətdir. Heç kəsə demə, ayıbdır,qonaqlıq nədir, qızını tənbeh et ki, bu ayıb və amoral bir şeydir.

Azadlıqla özbaşınalıq eyni şeydir. Sən narsist və əzik kişi ruhunu onun qulu olmaqla qidalandırmalısan. Sənin tək dayağın bu həyatda kişidir. Onsuz bu, mümkün deyil. Ailədə bərabərlik, sevgi, qayğıların bölüşdürülməsi, ortaq dəyərlər, maraqlar, zövqlər...Hamısı cəfəngiyyatdır.

Bu dünya ancaq kişilər üçündür, unutma. Və bu dünyada qadınların hüquqlarını ən çox qadınlar pozur. Necə? Özünün tərbiyə edə bilmədiyi oğlunu səninlə evləndirməklə.

Sahibə Yüsif

# Xəyalın Gücü

Ümüd fitrətinə yayılan işıq,
Nə vaxtsa qəlbində parlıyacaqdır.
Asi gözlərinə çökən qaranlıq,
Mütləq bir ümüdlə nurlanacaqdır.

Xəyal et, yorulma xəyallarından,
Xəyalın özü də ümüdə yoldu.
Arzular o yolda qovuşacaqsa,
Fərqi nə enişdə, yoxuşda oldu.

Bir düşün, ümidlə gözləyənləri,
Bir ömür arzuyla yaşayanları,
Səni həqiqətdə itirənləri,
Səni xəyallarda yaşadanları...

Bax budur xəyalın gücü əzizim,
Hər arzu qəlbinə gücdür,təpərdir.
Səni xəyal edib duya bilənçün,
Sənin xəyalın da dünya qədərdir.

Nazira Boymurodova

# Benimle Söyle

Dünyaya gelip de
Oynayamadıysan.
Derdini kimseye
Söyleyemediysen.

Dünyaya gelip de
Oynayamadıysan.
İsteyip de bir şarkı
Söyleyemediysen.

Oyna, oyna, oyna benimle
Söyle, söyle, söyle benimle.

Yürekten oyna ki
Gamların gitsin.
Seni hasta eden
Dertlerin bitsin.

Oyna, oyna, oyna benimle
Söyle, söyle, söyle benimle.

Hayat geri gelmez
Hayaller bulunmaz.
Şu kısa dünyanın
Sensiz tadı olmaz.

Mətanət Hüseynxanqızı

# Çal Qopuzu

Dədəm Qorqud, durub qopuz çalsana.
Gedənləri bir də yada salsana.
Ərənlərdən xoş bir xəbər alsana.
Oğuzlarım yurd dərdimi biləlvalər,
Düşmənləri yer üzündən silələr.

Tariximin qanla dolub varağı.
Götür ələ qopuz adlı “yarağı”,
Uluların bircə gəlsin sorağı,
İgid qazan çatsın bu gün dadıma,
Gedər ellər yaman düşüb yadıma

Ağlar olub, sızlar olub analar
Qolu bağlı qalıb gözəl sonalar,
Çal qopuzu, dərdlərimə yanalar,
Ulu ruhlar bir sədana oyansın,
Oğuz elim səd-səd olub dayansın.

Dədəm Qorqud, gəl çal bir də qopuzu,
Qoy oyatsın səsin yatan oğuzu.
Qara çoban, igid Beyrək, Uruzu,
Uzaq ünlü, uzaq yollu səfərlə,
Dönüb gəlsin tarixlərə zəfərlə.